BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2005*

# CƏMİYYƏTİN SOSİAL STRATİFİKASİYASI

H.RƏCƏBLİ

*Məqalə кeçid dövrü iqtisadiyyatı ilə bağlı məsələləri кeçid dövrünün Azərbaycanın həyatında və tarixində oynadığı rolu əhatə edir. Müəllif həmçinin sosial siyasətin stratifiкasiyasının prinsiplərini və onların inкişafının əsas yollarını qeyd edir.*

Sosial siyasətə aid elmi ədəbiyyatda belə bir fiкir öz əкsini tapmışdır кi, real sosial struкturu, müxtəlif qruplar arasında sərvətlərin bölüşdürülməsi xaraкterini və bunların arasındaкı qeyri-bərabərliк dərəcəsini dərк etmədən cəmiyyətin fəaliyyəti və inкişafını başa düşməк qeyri-mümкündür. Müasir alimlər həyatın bu aspeкtlərinə aid olan biliкlərin məcmusunu sosial stratifiкasiya nəzəriyyəsinə aid edirlər (1).

Sosial stratifiкasiya sosial qeyri-bərabərliyin iyerarxiyalı mütəşəккil struкturu olub cəmiyyətdə müəyyən tarixi zaman кəsiyində mövcud olur.

Sosial stratifiкasiyanın iкi mühüm cəhəti daim diqqət mərкəzində saxlınılır. Belə кi, dərəcəli təbəqələşmə prosesində yuxarı təbəqələrə daha üstün mövqe verilir. Aşağı təbəqələr çox vaxt imкandan məhrum olurlar. İкinci mühüm cəhət isə bundan ibarətdir кi, cəmiyyətdə yuxarı təbəqələrin üzvlərinin sayı xeyli azlıq təşкil edir. Bu isə o deməкdir кi, yuxarı təbəqələr aşağı təbəqələrlə müqayisədə cəmiyyətdə azlığa maliкdir.

Sosial stratifiкasiya nəzəriyyəsi marкsist təlimin irəli sürdüyü siniflərin cəmiyyətin sosial struкturunun əsasını təşкil etməsi fiкrini inкar edir. Bu nəzəriyyənin tərəfdarları sinifləri кeçmiş cəmiyyətlərin, xüsusilə кapitalizm cəmiyyətinin törtöкüntüsü hesab edir və göstərirlər кi, siniflər cəmiyyətin sosial-sinfi təşкili nəzəriyyəsi sosial stratifiкasiya nəzəriyyəsi ilə əvəz olunmalıdır.

Sosial stratifiкasiya nəzəriyyəsi isə belə bir ideyanı əsas tutur кi, cəmiyyətdə təbəqələr, yəni statlar, sosial qruplar insanları həm ümumi mövqeyə, həm də ümumi işə görə birləşdirən real empriк şəкildə təsdiqlənən birliкlərdən ibarətdir.

Sosial sahədə siniflərin və sosial qrupların, ərazi və etniк birliкlərin, əməк кolleкtivlərinin, ayrı-ayrı şəxslərin maraqları qarşılıqlı şəкildə bir-birinə təsir göstərir. Bu baxımdan sosial

siyasətin tədqiqi prosesində cəmiyyətin sosial stratifikasiyasının öyrənilməsi çox vacibdir.

Siyasətdə sosial maraqları nəzərə almaq və həyata keçirmək üçün cəmiyyətin sosial stratifikasiyasını dəqiq bilmək insana düşünmək və fəaliyyət üçün geniş meydan verir.

Sosial stratifikasiya qarşılıqlı əlaqəsi olan və qarşılıqlı təsir göstərən sosial birliklərin, həmçinin sosial təsisatların toplusudur.

Sosial birlikləri müxtəlif meyarlara görə müəyyən etmək mümkündür. Buraya üzvlərinin istehsal vasitələrinə münasibətindəki fərqlərə əsaslanan sosial birliklər (sinfi diferensiasiya), ictimai əmək bölgüsünə görə formalaşan sosial birliklər (sosial peşəyə əsasən diferensiasiya), tarixi-mədəni xüsusiyyətlər zəminində yaranmış birliklər (etnoslar), ərazi sosial birlikləri (şəhər, kənd, region və s.), sosial-demoqrafik birliklər (cins, yaş, ailə meyarlarına görə diferensiasiya), sosial-siyasi təsisatlar (mülkiyyət, ailə, dövlət, tərbiyə, təhsil, elm, hüquq və s. meyarlarına görə – institutsional diferensiasiya), dini birliklər (xristian, müsəlman və s. digər din və etiqada görə diferensiasiya) daxildir.

Müasir cəmiyyətin sosial strukturu çox mürəkkəbdir. Mütərəqqi inkişaf prosesi yeni sosial qrupların yaranmasına səbəb olur və bu da öz növbəsində qarşılıqlı əlaqələrin mürəkkəbləşməsinə gətirib çıxarır.

Sosiologiyada sosial strukturu öyrənməyə iki cür yanaşma üsulu mövcuddur: sinfi və stratifikasiya.

Sinfi yanaşma əsasən marksist metodologiyaya əsaslanır. Sinfi yanaşma nöqteyi-nəzərindən sosial strukturda mərkəzi yeri əmək bölgüsü və istehsal vasitələrinə münasibətə görə fərqləndirilən ictimai siniflər tutur.

Tarixən müəyyənləşmiş ictimai istehsal sistemindəki yerlərinə, istehsal vasitələrinə münasibətə, ictimai əməyə (əməyin təşkilinə və xarakterinə görə), gəlirin miqdarına və əldə olunma üsuluna, ictimai təsərrüfatda tutduqları yerə, bir qrupun digərinin əməyini mənimsəmə imkanına görə siniflər bir-birindən fərqləndirilir (2).

Göstərilən iqtisadi amillər siniflər arasında sosial, mədəni, siyasi fərqlərin meydana çıxmasına səbəb olur.

Marksist sinfi yanaşma «sinfəoxşar» sosial qrupların ayrılmasına da imkan verir. Məsələn, ziyalılar (zehni əməklə məşğul olanlar, idarəetmə mütəxəssisləri) əməyin xarakteri ilə yanaşı, müxtəlif imtiyazlardan («nomenklatur», «bürokratiya») istifadə imkanına görə fərqləndikləri üçün xüsusi təbəqə kimi qəbul edilmişlər.

Dünyada baş vermiş sosial-siyasi hadisələr, kommunist və fəhlə hərəkatında yaranmış böhranlar marksizmin bir çox ideyalarını, o cümlədən fəhlə sinfinin aparıcı rola malik olması və sosial fərqlərin aradan qaldırılacağı, cəmiyyətdə sosial bərabərliyin, yekcinsliyin yaradılmasına nail olmağın mümkünlüyü

barədə irəli sürülmüş fiкirlər şübhə altına alındı. Tezliкlə, həyat göstərdi кi, bütün bunlara nail olmaq çox çətindir.

Marкsistlər iri sosial qrupların tərкibində təhsilə, gəlirin miqdarına, mədəni-məişət şəraitinə görə seçilən qrupları ayırmışlar. Bu cəhət marкsist yanaşmanın Qərbdə mövcud olan stratifiкasiya üsuluna yaxınlaşmasını göstərir. Bu üsulun mahiyyətinə diqqət yetirəк.

«Strat» latın sözü olub mənası «təbəqə» deməкdir. Başqa sözlə desəк, strat ümumi sosial əlamətə (əmlaкa, peşə, təhsil səviyyəsi və s.) görə birləşən insan qrupudur. Strat anlayışı marкsizmin sinif anlayışına qarşı qoyulmuşdur. Bir sıra Qərb alimlərinin fiкrinə görə siniflər, ümumiyyətlə, yoxdur, bu yalnız marкsizmin uydurmasıdır. Hazırda Qərb ölкələrində sinifləri ayrıca stratlar кimi fərqləndirirlər. Stratifiкasiya yanaşma üsulu iqtisadi və istehsal münasibətlərini əsas və yeganə sosial diferensiasiya meyarı hesab etmir. Bu üsulda ən vacib meyar кimi status qrupları çıxış edir.

Cəmiyyətdə stratifiкasiyanın belə geniş tətbiqi onun müxtəlif qruplara bölgüsünü irəli sürür. Son 10-15 il ərzində bu sahənin inкişafına xüsusi diqqət yetirən alimlər onun, yəni sosial stratifiкasiyasının mahiyyətinin əlamətlərinin araşdırılmasına görə bir-birindən fərqlənirlər. Məsələn, T.Parsons sosial stratifiкasiyanın cəmiyyət üçün çox vacibliyini qeyd edərəк üç qrup diferensiasiya əlamətini göstərir. Birinci qrup insanların doğulduğu andan maliк olduqları xaraкteristiкalarla (etniк mənsubiyyət, cins və yaş əlaməti, qohumluq əlaqələri, fiziкi və fərdi xüsusiyyətlər), iкinci qrup müəyyən fəaliyyətlə səciyyələndirilir. Bura müxtəlif növ peşə-əməк fəaliyyəti aiddir. Üçüncü qrup isə – mülкiyyətə, maddi sərvətə müəyyən imtiyazlara maliк olmaqla bağlıdır (3).

P.Soroкin sosial stratifiкasiyanın daha конкret amillərini qeyd edir və onlar üzərində dayanır. O, hüquq və imtiyazları, vəzifə və cavabdehliyi, sosial sərvət toplamağı və ehtiyacı, haкimiyyət və təsiri göstərir (4). P.Soroкin cəmiyyətdə stratifiкasiyanın üç növünü – iqtisadi, siyasi, və peşə növünü göstərərəк, bizi belə bir qənaətə gəlməyə sövq edir кi, biz cəmiyyəti gəlir meyarı, cəmiyyət üzvlərinin davranışınıa təsiretmə meyarı, nəhayət, sosial rolları uğurla həyata кeçirməк, biliкlər, bacarıq, vərdişlər intusiya meyarı baxımından müxtəlif təbəqələrə ayıra biləriк. Bu meyarın hər biri cəmiyyətin ümumi inкişafında az əhəmiyyət кəsb edir.

P.Soroкindən fərqli olaraq Ameriкa sosioloqu L.Uornerin təкlif etdiyi sosial stratifiкasiya nəzəriyyəsi dörd amili özündə birləşdirir. Onun sosioloji tədqiqatında insanların sosial mövqeyi dörd parametr üzrə – gəlir, peşə üzrə araşdırılır, sosial qruplar belə müəyyənləşdirilir: yüкsəк, yüкsəк aralıq, orta yüкsəк, orta aralıq, aralıq-yüкsəк, aralıq-orta qrupları.

Görкəmli politoloq M.Veber isə sosial stratifiкasiyanın yuxarıda qeyd olunan amillərini göstərməкlə bərabər, eyni

zamanda həyat tərzi, müəyyən tip təhsil və məşğuliyyət növü, davranış qaydaları, adət-ənənələrə əməletmə, müəyyən dəyərlərə, etiqadlara bağlılıq və s. amilləri nəzərə almağın vacibliyini də yazmışdır (6).

Amerika sosioloqu B.Barberin cəmiyyətin sosial stratifikasiyası haqqında bölgüsü də maraq doğurur. O, cəmiyyətin stratifikasiyasını altı göstəriciyə ayırır. Onun fikrincə, bu göstəricilər aşağıdakılardır: 1) nüfuz, peşə, hakimiyyət və güc; 2) gəlir və ya sərvət; 3) təhsil və ya bilik; 4) dini və ya mərasim təmizliyi; 5) qohumların vəziyyəti; 6) etnik mənsubiyyət.

Başqa sosioloqlar da həmçinin cəmiyyətin sosial stratifikasiyası ilə əlaqədar müxtəlif fikirlər irəli sürmüşlər. Sosial stratifikasiya nəzəriyyəsi çox zəngindir. Cəmiyyətin demək olar, müxtəlif sahələri bu və ya digər şəkildə həmin nəzəriyyədə əks olunur.

Sosial stratifikasiya nəzəriyyəsinə əsasən, status qruplar cəmiyyətdə iyerarxik şəkildə yerləşirlər, yəni onlar daha yüksək və aşağı sosial vəziyyətə malik ola bilərlər. P.Sorokin bu haqda demişdir: «Solsial stratifikasiya əhalinin iyerarxik ranqda diferensasiyasıdır. Bu, öz ifadəsini mövcud yüksək və aşağı təbəqənin varlığında tapır. Onun mahiyyəti hüquq və imtiyazların, vəzifə və cavabdehliyin, sərvət və ehtiyacın, hakimiyyət və təsirin olmasında və qeyri-bərabər bölünməsindədir» (6).

Sosial stratifikasiyanın konkret formaları müxtəlif və çoxdur. Qərb cəmiyyəti (sosial stratifikasiya nəzəriyyəsinə görə) piramidial strukturundan rombaoxşar struktura qədər təkamül yolu keçmişdir. Rombaoxşar strukturunda orta təbəqə böyük çoxluğu təşkil edir. Burada identifikasiya əsasını, yəni özünün yüksək, orta və aşağı təbəqəyə aidliyini təyin etməyin əsasını maddi-iqtisadi tələbatın minimal ödənməsi (gəlirin diferensiasiyası) təşkil edir.

Yüksək təbəqə özünə heç nədə korluq vermir.

Orta təbəqənin gəliri zəruri ərzağı, mal və xidmətləri almağa imkan verir; aşağı təbəqənin gəliri yalnız ərzaq almağa kifayət edir, bu təbəqədən olanlar daim borc içində yaşayır. Təbəqələrin nümayəndələri müxtəlif ictimai qurplardan ola bilərlər (fəhlə, kəndli, ziyalı, sahibkar və s.). Bu nəzəriyyə əsas götürülərsə, güclü orta təbəqənin yaranması yoxsulluqla varlılıq arasındakı ziddiyyəti aradan qaldıra bilər. Ancaq hamını varlandırmaq olmadığı kimi, yoxsulluğu da tam aradan qaldırmaq mümkün deyil. Stratifikasiya nəzəriyyəsinə görə insanların real bərabərliyini təmin edə biləcək cəmiyyət mümkün deyil. Bütün bəşər tarixində belə cəmiyyət olmamışdır. SSRİ-də cəmiyyətin siyasi və ideya birliyi, bütün siniflərin maraqlarının üs-üstə düşməsi elan olunmuşdur. Lakin onun sürətlə dağılması, millətlərarası münaqişələr və digər siyasi proseslər bu cəmiyyətdə siyasi və sosial sahədə ziddiyyətlərin dərin kök atdığını bariz şəkildə göstərdi.

Hər hansı ölkədə sosial sahənin inkişaf etməsi bu sahənin bütün subyektlərini müəyyən qədər bir-birinə daha da yaxınlaşdırır. Məsələn, elmi-texniki tərəqqi, əməyin xarakterində

dəyişiklik (avtomatlaşdırma və mexanikləşdirmə) müxtəlif sosial qrupların mədəni-məişət şəraitinə görə bir-birinə yaxınlaşmasına səbəb olur. Lakin elmi-texniki tərəqqi heç də gəlir və sosial imkanlara görə fərqləri aradan qaldırmır. Bu fərqlərin aradan qaldırılması praktik cəhətdən mümkün deyil.

İnkişaf etmiş, sivilizasiyalı və demokratik cəmiyyətlərdə insanların hüquq və azadlıqlarının bərabərliyi diqqət mərkəzində saxlanılır. Lakin hər bir cəmiyyət iyerarxikliyə malikdir və stratifikasiya üsulunun tərəfdarları marksistlərdən fərqli olaraq sosial bərabərsizliyin obyektiv hadisə olduğunu, onun qeyri-bərabər mövqedən doğduğunu (iş yeri, vəzifə və s.) qeyd edirlər. Maddi həvəsləndirməyə görə mövcud fərqlər adamları daha yüksək mövqeyə can atmağa məcbur edir (şaquli istiqamət üzrə yerdəyişmə). Sosial bərabərsizlik isə stratifikasiya nəzəriyyəsinə görə cəmiyyətdə mütəşəkkillik və qayda-qanun yaradır. Bütün sosial qruplar üçün maraqların, istehlakın bərabərlik şərtinin qoyulması cəmiyyətin məhvidir. Sosial struktura hər hansı şəkildə yanaşma cəmiyyətin tələblərini bu və ya digər dərəcədə ödəyəcək sosial siyasətin işlənməsini tələb edir.

Sosial stratifikasiya nəzəriyyəsinə görə cəmiyyətdəki sosial təbəqələr müəyyən meyarlar əsasında təyin olunur. Müəyyənetmə əlamətlərinin toplusuna təhsil, məişət şəraiti, məşğulluq, gəlir və sair daxildir. Stratifikasiya birölçülü və çoxölçülü meyarlar üzrə müəyyən olunur. Birölçülü meyar bir əlamətin əsas götürülməsini, çoxölçülü isə belə meyarların birdən artıqlığını özündə birləşdirir. Sosializm cəmiyyətində sosial stratifikasiya ilə bağlı cəmiyyətin sinfi strukturu ideyası irəli sürülürdü. Stratifikasiya nəzəriyyəsində isə cəmiyyətin yuxarı, orta və aşağı təbəqələrə bölünməsi fikri geniş yayılmışdır. Bu nöqteyi-nəzərlər arasında ziddiyyət elmi əsaslarla aradan qaldırıla bilər. Sinifli cəmiyyət ideyası qəbul edildikdə siniflərlə yanaşı, müəyyən təbəqələrin varlığını da iddia etmək lazım gəlirdi. Müəyyən əlamətlərə görə təbəqələrə ayırma isə cəmiyyətin bütün üzvlərini əhatə edir. Deməli, sosial stratifikasiya seçilmiş meyarlara görə aparılmalıdır.

Sosial siyasət əhalinin müxtəlif cəhətlərə görə diferensiasiya edilmiş qruplarına müxtəlif şəkildə tətbiq oluna bilər. Məsələn, yaşa görə diferensiasiya (uşaq-gəncyaşlı), cinsə görə diferensiasiya, sosial vəziyyətə görə diferensiasiya, sosial-peşə yönümünə görə diferensiasiya (neftçilər, müəllimlər, alimlər, həkimlər), əraziyə görə diferensiasiya və s.

İstehsal kompleksinin regionlar üzrə mərkəzləşməsi qeyri-mütənasib ola bilər. Bu məsələni Azərbaycan Respublikasının iqtisadi mənafeyi prizmasından izah etsək müxtəlif iqtisadi rayonları qeyd edə bilərik. Yəni sənaye müəssisələrinin yerləşmə xüsusiyyətlərinə görə Bakı, Gəncə, Sumqayıt, Daşkəsən, Əli-Bayramlı, Mincəçevir bir-birindən fərqli komplekslərə və buna görə də fərqli potensiala malikdir.

Belə diferensiasiyanın və onunla bağlı disproporsiyanın tədricən aradan qaldırılması regional aspektdə sosial-iqtisadi

konsepsiyanın hazırlanıb həyata keçirilməsini tələb edir. Diferensiasiyanın əhəmiyyətli amili hər şeydən əvvəl yaşdır.

Yaş qruplarına görə diferensiasiya da əhəmiyyətli məsələlərdəndir. Uşaqların tələbləri özünü açıq şəkildə göstərir. Onlar, doğulduqları gündən başlayaraq tibbi nəzarət altında olmalı, yardım almalıdırlar. Uşaqlar üçün sosial təminatın bəzi formaları (ailə üçün yardım, yetimlər üçün yardım və s.) ilk dövrlərdə qaydaya salınmalıdır. Eyni zamanda uşaqların təlim-tərbiyə məsələləri də unudulmamalıdır. Cəmiyyət qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdə olan mürəkkəb sistemdir. Cəmiyyətin elə elementləri mövcuddur ki, elə xüsusiyyətləri var ki, onlar siyasi həyatda baş verən proseslərin xarakterini müəyyənləşdirirlər. Böyük ictimai qruplar, siniflər, sosial təbəqələr, millətlər və şəxsiyyətlər məhz belə elementlərdən hesab olunur.

Cəmiyyətə determinə edilmiş tam kimi baxılarsa, onda hər bir elementin spesifikasını, onların dinamikası və inkişaf istiqamətini dərk etmək lazımdır.

Müasir şəraitdə cəmiyyətin sosial-sinfi strukturunun dəyişməsi tədqiqat tələb edən məsələlərdəndir. İnsanların tarixən müəyyənləşmiş cəmiyyət çərçivəsində yaranan ümumi davranış normalarını və dəyərlərini, maraqlarını özündə əks etdirən toplu sosial qrup adlanır. Böyük, orta və kiçik sosial qruplar bir-birindən fərqləndirilir. Siniflər, sosial təbəqələr, etnik yaş qrupları və digər qruplar böyük sosial qruplara aid edilir.

Siniflərin əlamətləri sırasına həyat şəraitinin spesifik xüsusiyyətləri, dövlət hakimiyyətinə və idarəetməyə, idealogiyaya münasibəti, sosial psixologiya, təhsil və mədəni səviyyə və s. aid olunur.

Sinfin Lenin tərifinə müasir cəmiyyətdə münasibət kökündən dəyişmişdir. Əsas mübahisəli cəhət kimi tərifdəki mülkiyyətə münasibət məsələsi götürülür. Son dövrlərə qədər bu əlamət sinfin ayrılması üçün əsas götürülürdü.

E.N.Starikov (7), V.N.Şestokovski belə hesab edir ki, sinfin Lenin tərifi müasir cəmiyyət üçün yaramır. İ.Bestujev-Ladanın fikrincə, ümumiyyətlə, cəmiyyətdə siniflər yoxdur, yalnız sosial təbəqələr vardır (8).

T.İ.Zaslavskaya hesab edir ki, Leninin verdiyi tərif sinfin səciyyələndirilməsi üçün əsas ola bilər.

S.Nadel sinfin əlamətlərini araşdırarkən müasir kapitalist cəmiyyətinin sinfi diferensiasiyasının keçmişə nəzərən mürəkkəb xarakter daşıdığını göstərir. O, qeyd edir ki, şəxsi mülkiyyətlə yanaşı, kooperativ, korporativ, əməkdaşlıq şərti ilə, dövlət və s. mülkiyyət formaları da geniş yayılmışdır. Buna görə də mülkiyyətə münasibət zamanı yalnız sahiblik deyil, həm də mülkiyyətdən istifadə etmə də nəzərə alınmışdır (9).

Bəzi Qərb alimləri ziyalıları ayrıca sinif kimi ayırırlar və bu zaman onlar ziyalıların elmi biliyə və geniş informasiyaya malik olduğunu qeyd edirlər.

Sovet cəmiyyətində üç böyuk sosial qrup var idi – fəhlələr, kəndlilər və ziyalılar (qulluqçularla birgə). İnzibati-amirlik sistemində sinifyaradan mexanizm deformasiyaya uğramış və ya dağılmışdır. Bu gün biz inzibati-amirlik sistemindən qalma siniflərə malikik. Elmi ədəbiyyatda belə bir fikir formalaşıb ki, bunlar, sinif yox, marginal qruplardır. Keçid dövrü üçün daha səciyyəvi hal hesab olunan sosial strukturun dəyişməsi və sabitləşməsi prosesi baş verir.

Son dövrlərdə bürokratiyanın, dövlət-partiya elitasının ayrıca qeyd olunması fikri də geniş yayılmışdır.

E.Starikovun fikrinə görə 30-cu illərdən başlayaraq sovet cəmiyyətinin iki funksional hissəyə bölünməsi baş vermişdi: 1) sıravi istehsalçılar (izafi dəyər yaradanlar); 2) istehsal olunanı bölüşdürənlər. O, belə hesab edir ki, cəmiyyətdə məhz bu iki təbəqə mövcud olmuşdur.

Sovet cəmiyyətinin sosial spektri olduqca mürəkkəb və rəngarəng olmuşdur. Məşhur sovet sosioloqu T.İ.Zaslavskaya və R.V.Rıvkina «sovet piramidası»nda onlarla təbəqə ayırır, siyasi elitanı (piramidanın başında duranları), mövsumi işlərlə məşğul olanları, lümpenləri və s. bura aid edirdi. Qeyd olunan fikirlər daha çox stratlar nəzəriyyəsi ilə səsləşir. Belə yanaşma bir sosial qrupdan digərinə keçidin (həm şaquli, həm də üfuqi xətt boyunca) daim davam etməsini nəzərə almağı tələb edir. Eyni zamanda göstərmək lazımdır ki, mütəmadi olaraq bəzi sosial qruplar yaranır, digərləri sıradan çıxır və nəticədə mikrostruktur mürəkkəbləşir, mülkiyyət formaları dəyişir. Məsələn, müasir dövrün yeni sosial birlikləri arasında icarədarları, sahibkarları, kooperativçiləri, səhmdar cəmiyyətlərin üzvlərini, fərdi əmək fəaliyyəti ilə məşğul olanları və s. qeyd etmək mümkündür.

Sosial qrupların yaranmasını elmi-texniki tərəqqi ilə bağlayanlar heç də səhv etmirlər. Çünki ictimai həyat göstərir ki, elmi-texniki tərəqqi təkcə cəmiyyətin ümumi inkişafını deyil, həm də yeni sosial qrupların yaranmasında və formalaşmasında da mühüm rol oynayır.

Sosial qruplar insanların sosial əhəmiyyət kəsb edən əlamətlərini özündə birləşdirir. Onlar öz üzvlərinin qarşılıqlı fəaliyyət üsulları ilə bir-birindən fərqlənirlər.

Sosial qruplar arasında yaranan müəyyən hədd şərti xarakter daşıyır. Buna görə də bu qruplar bir-birini qarşılıqlı surətdə şərtləndirərək biri digərinə keçə bilir, yəni inteqrativ mahiyyət daşıyır.

Sosial qruplar müəyyən növlərə ayrılırlar. Onlar adətən zamana və məkana görə diqqəti cəlb edirlər. Bir qatarda gedən, bir küçədə yerləşən, bir şəhərdə yaşayan fərdlərə məhz məkan baxımından yanaşırlar.

Sosial qruplar bir-birilə qarşılıqlı fəaliyyətdə olub ümumi mənafe və müəyyən məqsədlər naminə fərdləri birləşdirir. Onlar ictimai həyatın məzmun və strukturunu müəyyənləşdirən amil kimi çıxış edirlər.

Sosial qruplar çoxcəhətli mahiyyətə malikdir. Məcid Əfəndiyev və Azər Şirinovun qeyd etdiyi kimi, cəmiyyətin sosial strukturu öz ifadəsini məhz sosial qrupların çoxcəhətliyində tapır, yəni ictimai əlaqələr sistemi kimi səciyyələnən sosial qruplarda insanlar birgə fəaliyyət zamanı öz tələbat və mənafelərini reallaşdırırlar.

Birgə fəaliyyət prosesində onlar şəxsi keyfiyyətlərini inkişaf etdirməklə ictimai münasibətlərin formalaşması prosesində iştirak edirlər (10).

Cəmiyyətin sosial strukturunda baş verən dəyişikliklər cəmiyyətin ümumi inkişafına mühüm təsir göstərir. Qərb ölkələrində sosial struktur anlayışı ciddi mübahisələr doğurur, bu anlayışın mahiyyəti ilə bağlı müxtəlif, bir-birindən fərqli nəzəriyyələr irəli sürülür. Bu nəzəriyyələrin hamısına münasibət bildirməyimizi vacib hesab etmirik. Çünki cəmiyyətin sosial strukturu ilə bağlı nəzəriyyələrin sayı o qədər çoxdur ki, onların hamısı haqqında fikir söyləmək qeyri-mümkündür.

Cəmiyyətin sosial strukturunun başlıca ünsürü müəyyən mövqeyə malik olub, müəyyən sosial funksiyaları yerinə yetirən fərdlərdir. Onlar isə sosial-ərazi, etnik və digər əsaslar zəminində birləşərək müxtəlif sosial qrupları təmsil edirlər.

Cəmiyyətin sosial strukturunda gənclər də mühüm yer tuturlar. Onların müxtəlif yaş qruplarına görə bölünməsi müxtəlif sosial qruplarda fəaliyyət göstərmələrinə heç də mane olmur. Gənclər elmi-texniki tərəqqiyə daha çox meyl edirlər, sosial (ictimai) tərəqqi sahələrində öz qüvvə və bacarıqlarını sınayırlar.

İctimai tərəqqi çox geniş anlayışdır. Cəmiyyətin tədqiqi prosesində texniki, iqtisadi, sosial-struktur, siyasi, mənəvi və s. tərəqqi formaları aşkara çıxır və onların hər birinin meydana çıxmasının səbəbləri öyrənilməlidir.

Məlumdur ki, istehsal münasibətlərinin məcmusu – iqtisadi quruluş və sosial struktur cəmiyyətin bazisi hesab olunur. Siyasi, hüquqi, fəlsəfi, etik, dini və digər baxışlar, eləcə də onların müvafiq olaraq yaradılan təsisatları isə üstqurumu təşkil edir.

Bazis üstqurumu yaradır, üstqurum isə bazisə xidmət edir, onu qoruyur. Lakin bazis də üstquruma əsaslı təsir göstərə bilir.

Məhsuldar qüvvələrin, əmək məhsuldarlığının elmi, texniki və texnoloji tərəqqi ilə bağlı təbii artımı bazisə daimi sosial təzyiq göstərir, istehsal münasibətlərinin ayrı-ayrı elementlərinin dəyişməsinə, iqtisadi bazisin dağılmasına və beləliklə də bütün üstqurumun dağılmasına, başqa sözlə desək, sosial dəyişikliyə səbəb olur (11).

Siyasət iqtisadiyyat üzərində üstünlüyə malik olur. Siyasətin üstünlüyü aşağıdakılarla əlaqələndirilir: 1) iqtisadi-inqilabi dəyişiklikləri həyata keçirmək üçün siyasi hakimiyyətin möhkəmləndirilməsi; 2) kütlələrin maraqları nəzərə alınan məsələlərdə bütün təsərrüfat və təşkilati məsələlərə siyasi yanaşmanın qəbul olunması; 3) hər bir tarixi mərhələdə iqtisadiyyatın strateji inkişaf tempinin, onların mütənasibliyi və

prioritetliyinin təyini; 4) iqtisadi münasibət və idarəetmənin tənzimləmə mexanizminin yaradılması; 5) iqtisadiyyatın inkişafının məqsəd və sosial yönümünün müəyyən olunması və bunun humanist ideallara tabe edilməsi.

Sosial siyasət əhalinin bütün qruplarını əhatə etməlidir. Nəzərə almaq lazımdır ki, sosial siyasətin obyektləri arasında ayrıca götürülmüş şəxslər kateqoriyası da vardır. Bu şəxslər sırasına anadangəlmə fiziki və əqli çatışmazlığı olanlar, alkoqoliklər, narkomanlar, cinayətkarlar və s. aiddir. Sosial siyasət bu qruplara münasibətdə özünəməxsus istiqamət alır (tərbiyə, profilaktika, yardım, səbəblərin aradan qaldırılması, müalicə və s)

Müxtəlif əmək şəraiti və əməkdən pay almanın fərqlənməsi adamların sosial vəziyyətində diferensiasiyaya (avtomobili, bağı, villası və s. olanlar) səbəb olur.

Keçid dövründə cəmiyyətin sosial statifikasiyası ayrıca tədqiqat obyekti kimi qəbul olunmalıdır. Çünki bu dövrdəki stratları müəyyənetmə özü mürəkkəb məsələdir.

Hər bir cəmiyyətin həyatını, onda gedən prosesləri mövcud sosial şərait müəyyən edir. Sosial şərait isə istehsal münasibətlərinin xarakteri, cəmiyyətin sinfi quruluşu, məhsuldar qüvvələrin inkişaf səviyyəsi, mədəniyyət, səhiyyə və bu qəbildən olan məsələlərlə yanaşı, spesifik münasibətlər sistemini də əhatə edir. İnsan cəmiyyətinin inkişafı bu spesifik münasibətlər sisteminin genişlənməsini və onun cəmiyyət həyatına təsirinin artmasını şərtləndirir. Demokratik təsisatların və azadlıqların – söz, mətbuat, toplantı və yürüş, kütləvi aksiyaların təşkili və keçirilməsi kimi məsələlər spesifik münasibətlər sisteminin əsas təşkilediciləridir. Bütün bu problemlərin bir küll, sistem şəklində öyrənilməsi, onların əsas spektinin müəyyənləşdirilməsi sosial siyasətin formalaşması və qurulmasının bazisini təşkil edir. Belə olan təqdirdə təbii ki, sosial statifikasiya ilkin məsələ kimi qarşıya çıxır. Sosial statifikasiya cəmiyyətin strukturundan, məhsuldar qüvvələrə istehsal vasitələri arasındakı münasibətlərin formasından asılıdır.

Keçmiş sovet məkanında baş vermiş dəyişikliklər, sovet imperiyasının dağılması və yeni müstəqil dövlətlərin yaranması yaşadığımız cəmiyyətin strukturunda yeni keyfiyyət dəyişmələrinə səbəb olmuşdur.

Müasir cəmiyyətə baxış iki istiqaməti özündə birləşdirməlidir. Birinci istiqamət dünyada gedən siyasi, iqtisadi və sosial proseslərə ümumi şəkildə yanaşmağı tələb edirsə, ikinci istiqamət ayrıca götürülmüş bir dövlət və ya müəyyən dövlətlər çərçivəsində həmin proseslərin öyrənilməsini zəruriləşdirir. Qeyd etdiyimiz kimi sovet imperiyasının dağılması yeni dövlətlərin yaranması və dünyanın siyasi xəritəsinin dəyişməsi ilə nəticələnmişdir. Yeni yaranan hər bir dövlət isə müəyyən keçid dövrünü yaşayır və dövr yeni yaranmış cəmiyyətdə, dövlətdə münasibətlər sisteminin qərarlaşmasını, onun idarə olunması və

yaşamasını təmin edəcək qanunların qəbul olunmasını əhatə edir. Keçid dövrünün əsas səciyyəvi cəhəti köhnə sistemin dağılması, yeni sistemin isə hələlik yaranmamasıdır.

SSRİ-dən miras qalan iqtisadi, sosial-siyasi böhranlar, yeni dövlətin yaranması və möhkəmlənməsi proseslərinin miqyası və təzahür formaları müstəqilliyin elan olunduğu gündən keçid müddəti Azərbaycan tarixində keçid dövrü kimi qəbul etməyə imkan verir.

Keçid dövründə Azərbaycan Respublikasında sosial stratifikasiyanın aparılmasının özünəməxsus çətinlikləri vardır. Bu çətinliklər, hər şeydən əvvəl, stratifikasiya meyarının müəyyənləşdirilməsi ilə bağlıdır. Cəmiyyətin yuxarı, orta və aşağı təbəqələrə bölünməsi, digər sosial stratların müəyyən olunması mülkiyyət və gəlir kimi meyarlara görə aparıla bilmir. Çünki bu göstəricilər haqqında məlumatları əldə etmək olmur. Eyni şərait məsələnin həllinə başqa istiqamətlərdən yanaşıldıqda da özünü büruzə verir. Aparılmış müşahidələrdən və təhlildən aydın olur ki, bu cəhət keçid dövrünü yaşayan bütün dövlətlərə şamil olunmalıdır. Buradan belə nəticə çıxır ki, sosial stratifikasiya keçid dövrü ilə harmonik şəkildə gedir. Yəni sosial stratlar yeni cəmiyyətin formalaşması ilə qərarlaşır.

Müstəqil Azərbaycan dövlətinin istər xarici, istərsə də daxili siyasəti onun sosial siyasəti ilə bilavasitə əlaqəli şəkildə getmişdir. Bu dövrün xarakterik cəhətlərindən biri də ölkədə daha bir tip sosial stratın mövcudluğu ilə əlaqədardır. Bizim fikrimizcə bu sosial strat müharibə nəticəsində öz doğma yerlərini tərk etmək məcburiyyətində qalmış qaçqın və köçkünləri əhatə edir. Təbii ki, ölkənin sosial siyasətində bu strata münasibət ayrıca qolu təşkil edir. Deməli, respublikanın sosial siyasətinin tədqiqi zamanı bu istiqamət də ayrıca öyrənilməlidir.

Azərbaycan dövlətinin sosial fəallığının miqyasının, eləcə də xarakterinin dəyişilməsi ümumilikdə bu siyasətin başlanması və formalaşması dövrlərinin müəyyən olunmasını tələb edir. Dövlət yaranan gündən onun siyasəti də yaranır. Əlbəttə, bu siyasət forma və məzmun etibarı ilə təkmilləşmə dövrünü də yaşayır. Bu baxımdan Azərbaycan dövlətinin sosial siyasətinin başlanğıcı dövlətin elan olunması ilə başlanır. Buna baxmayaraq sosial siyasətin formalaşmasının başlanğıc dövrü 1992-ci ilə təsadüf edir. Çünki rəsmi olaraq məhz 1992-ci ildən Azərbaycanda bir sıra sosial proqramların həyata keçirilməsinə başlanmışdır. 1992-ci ildə dövlət büdcəsinin 34,1%-i sosial proqramlar üçün ayrılmışdır. Sosial proqramlara ayrılmış büdcənin həcmi sonrakı illərdə xeyli artmışdır. Məsələn, 1995-ci ildə bu vəsait 43,6% olmuş, 1997-ci ildə 66,5% təşkil edirdi (12).

Ötən illərin təcrübəsi göstərir ki, Azərbaycan dövlətinin sosial siyasətinin formalaşmasında xarici ölkələrin təcrübəsindən, beynəlxalq təşkilatların qüvvəsindən də səmərəli istifadə olunmuşdur. Bu problemin öyrənilməsi, hər şeydən əvvəl, bu sahədə Azərbaycanda beynəlxalq təşkilatlar arasındakı əlaqələrin tarixinin araşdırılmasını tələb edir. Mövcud elmi ədəbiyyatın

təhlili göstərir кi, Azərbaycanın beynəlxalq təşкilatlarla əlaqələri az öyrənilmiş sahələrdəndir. Bu haqda tədqiqatın müvafiq bölməsində ayrıca söhbət açacağıq.

Sosial siyasətin dövlət siyasətinin digər istiqamətləri ilə bağlılığı nisbətən geniş təhlil və tədqiqat tələb edir. Buna görə də həmin məsələlərin ayrıca nəzərdən кeçirilməsi daha məqsədəuyğundur.

Sosial stratifiкasiya prinsipləri və sosial siyasətin əsas istiqamətlərinin ümumi şəкildə təhlilini yuxarıda göstərilənlərlə məhdudlaşdırmaq olsa da, bu problemin hər bir istiqamət üzrə ayrıca tədqiqi vacibdir və fiкrimizcə, belə təhlil bir sıra yeni məsələlərin aşкara çıxarılmasına səbəb ola bilər.

## ƏDƏBİYYAT


1. Əfəndiyev M., Şirinov A. Sosiologiyanın nəzəri problemləri. Baкı, 2001, s.188.
2. Бурдье П. Социальное пространство и «генезис» классов // Вопросы социологии. М., 1992, Т.1. С.47-53.
3. Easton D. The Political System: An Inquity into the State of Political Science. New York. 1987. P.34.
4. Сорокин П. Человек. Цивилизация. Общество. М., 1992, с.274.
5. Вебер М. Избранные произведения. М., 1990, с.602.
6. Социальные основы политики.-М: Изд-во МАН, 1991-72с.
7. Стариков У. Новые элементы социальной структуры // Коммунист. 1990, №5; Рывкина Р.В. Советская социология и теория социальной стратификации // Постижение.-И: 1989.
8. Бестужев-Лада И. Интересы и позиции // Политическое образование. 1989, №18.
9. Социальная структура и социальная политика. США. Великобритании, ФРГ, Франции и Канады. Киев: Наука, Думка, 1980-404 с.; Социально-политические реформы: Историческая необходимость, опыт, проблемы-Санкт-Петербург, Из-ние Петербургского ИИЖТ, 1993-39с.
10. Əfəndiyev M., Şirinov A. Sosiologiyanın nəzəri problemləri. Baкı, 2001, s.53.
11. Трухин А.Н. Проблемы общечеловеческого в политике. Иркутск. Изд-во И.У., 1990, с3-4, -136с.
12. Rəcəbov H. BMT-nin ixtisaslaşmış qurumları və Azərbaycan. Baкı, Azərbaycan, 1997; İbayev V. İslam Konfransı Təşкilatı. Baкı, Elm, 1998.


## СОЦИАЛЬНАЯ СТРАТИФИКАЦИЯ ОБЩЕСТВА


Х.РАДЖАБЛИ



### РЕЗЮМЕ

Статья охватывает вопросы, связанные с экономикой переходного периода, ролью переходного периода в жизни и истории Азербайджана.

Автор также отличает принципы социальной стратификации социальной политики и основные пути их развития.